SSR BACKGROUNDER

# Ədliyyə Sektoru

## Yaxşı təhlükəsizlik sektoru idarəçiliyində rollar və vəzifələr

***Bu buraxılışla bağlı:*** *TSİ-ı Köməkçi materialları yaxşı təhlükəsizlik sektoru idarəçiliyi(TSİd) və təhlükəsizlik sektoru islahatı(TSİ) üzrə mövzulara qısa girişlər verir. Bu cür buraxılışlar indiki dövrdə gedən debatları ümumiləşdirir, əsas terminləri izah edir və geniş təcrübəyə əsaslanaraq əsas gərginlik doğuran məsələləri üzə çıxarır. TSİ Köməkçi materialları yaxşı idarəçilik və ya islahat üçün spesifik modelləri,siyasi proqramları və ya təklifləri təbliğ etmir,əksinə hər bir bu cür mövzular üzrə oxucuların biliklərinin artması üçün, onları əlavə vəsaitlərlə təmin edir. TSİ Köməkçi materialları yaxşı təhlükəsizlik sektoru idarəçiliyi (TSİd) və Təhlükəsizlik sektoru islahatı (TSİ) üzrə mövcud yanaşmaları anlamaq və tənqidi qiymətləndirmə aparmaq istəyən təhlükəsizlik sektoru idarəçiliyi və islahatı üzrə çalışan maraqlı tərəflər üçün nəzərdə tutulan vəsaitdir.*

***Bu TSİ-ı Köməkçi materialları ilə bağlı:*** *Bu Köməkçi materialları ədliyyə sisteminin yaxşı təhlükəsizlik sektoru idarəçiliyində rolu və vəzifələri haqqındadır. Ədliyyə sektoru qanun aliliyini rəhbər tutmaqla təhlükəsizlik təminatında rol oynayır, o həm də təhlükəsizlik sektoru qulluqçularını və dövləti qanun qarşısında cavabdeh tutmaqla təhlükəsizlik sektoru üzərində demokratik nəzarət aparmaqla rol oynayır. Bu Köməkçi materialları, ədliyyə sektorunun yaxşı TSİd-də oynadığı rolun fərqli perspektivlərini və onun TSİ –ı üçün nəyə görə lazımlı olduğunu izah edir.*

***Bu TSİ Köməkçi materialları aşağıdakı suallara cavab verir:***

- *Ədliyyə sektoru nə deməkdir?*
- *Yaxşı təhlükəsizlik sektoru idarəçiliyi prinsipləri ədliyyə sektoruna necə tətbiq edilir?*
- *Qeyri dövlət ədalət təminatçılarının rolu nədir?*
- *Ədlliyyə sistemi təhlükəsizliyi necə təmin edir?*
- *Ədliyyə sektoru təhlükəsizlik sektoru üzərində nəzarəti necə təmin edir?*
- *Nəyə görə ədliyyə sektoru TSİ-nın bir hissəsi sayılır?*
- *TSİ-ı ədalətin təmin edilməsini necə yaxşılaşdırır?*

DCAF Geneva Centre for Security Sector Governance

## Ədliyyə sektoru nə deməkdir?

**Təhlükəsizlik sektoru islahatı üzrə bu köməkçi material, ədliyyə sektoru dedikdə, ədalətin təmin olunması,idarəetməsi və onun üzərində nəzarət aparılmasına cəlb olunan dövlət və qeyri-dövlət subyektlərini əhatə edən bütün agentliklər və subyektləri nəzərdə tutur.** Bu çox geniş tərif sayılır və hər bir ölkənin siyasi sietemində fərqli hüquqi və siyasi sistemlər və həmçinin normalar,mədəniyyət və tarixi ənənələr ədliyyə sisteminin necə təşkil olunmasına və işləməsinə təsir edir.

Ədliyyə sektoru şəraitdən asılı olaraq aşağıdakı elementlərin bir qismini və ya hamısını əhatə edir:

- **Hüquq sistemi və onun** işçiləri **və idarələri:** buraya məhkəmələr və hakimlər və həmçinin vəkillər,müdafiə və prokurorluq xidmətləri,dövlət hüquq mütəxəssisləri,bar birlikləri,hüquqi yardım orqanları və ictimaiyyəti təmsil edən proqramlar,hüquqşünas olmayan işçilər,məhkəmə daxilindəki işçilər(mühavizə və s) və hərbi ədliyyə sistemləri və həmçinin alternativ mübahisə mexanizmləri kimi tribunallar,vasitəçilik xidmətləri və mövcud icma əsaslı münaqişə hədləri mexanizmləri daxildir.
- Ədliyyə təsisatlarının rəhbərlik və idarəetmə**sinə məsul olan icra orqanları:** adətən öz işində məhkəmə orqanlarından asılı olmayan ədliyyə nazirliyi və ya departamenti olur.
- **Ədliyyə sektoru üzərində nəzarətə məsul olan təsisatlar,** o cümlədən, parlament komitəsi və müstəqil nəzarət orqanları, məhkəmə –hüquq şuraları, hüquqi xidmətlər və hüquq komissiyaları və həmçinin ombudsman təsisatları,insan hüquqları komissiyaları və anti-korrupsiya komissiyaları kimi geniş müstəqil nəzarət təsisatları**.**
- **Hüquq-mühavizə orqanlarına məsul olan agentliklər,** buraya, polis, ümumi tənzimləyici orqanlar,kömrük və sərhəd xidmətləri,kəşfiyyat xidmətləri , fövqaladə hallar üzrə xidmətlər və bəzən kommersiya əsaslı müqavilə ilə işləyən təhlükəsizlik qüvvələri da daxildir.
- **Həbs və rehabilitasiya işlərini həyata keçirən idarələr,** həbsxanalar,tərbiyəedici və saxlama orqanları (rəhbərlik və həbsxana gözətçiləri) buraya daxildir; xüsusi olaraq ədliyyə sisteminə xidmət edən sosial, tibbi və əqli sağlamlıq mərkəzləri;və məhkəmədən öncə saxlananlara və icma əsaslı cəzalara nəzarət edən hakimiyyət orqanları, çox zaman bu cür orqanlar adi və ənənəvi hakimiyyət orqanları və ya kommersiya şirkətləri olur.

Yaxşı TSİd-i baxımından,yüksək standardlı ədalət təmin etmək marağında olan qeyri-dövlət subyektləri və təşkilatlar da ədalət sektoruna daxil edilə bilər,çünki onlar ictimai nəzarəti təmin edirlər: buraya,məsələn, icma liderləri, mülki hüquq vəkilləri,qadın təşkilatları,mülki cəmiyyət təşkilatları,birliklər və peşəkar təşkilatlar, elmi və tədqiqat təsisatları,media və icmada qəbul edilən və ənənəvi liderlər daxildir.

### Təhlükəsizlik sektoru

Təhlükəsizlik sektoru,ölkə və yerli səviyyələrdə təhlükəsizliyin təmin edilməsi,onun idarəetməsi və onun üzərində nəzarət funksiyalarına məsul olan bütün strukturlar, təsisatlar və təhlükəsizlik qulluqçularından ibarətdir, o cümlədən aşağıdakı hər ikisi:.

- Təhlükəsizlik təminatçıları, buraya silahlı qüvvələr, polis,sərhəd xidməti,kəşfiyyat xidmətləri, cəza müəsisələri, kommersiya və qeyri dövlət təhlükəsizlik aktyorları daxildir;
- Təhlükəsizlik idarəetmə və nəzarət orqanları, buraya yüksək standardlı dövlət təhlükəsizlik təminatı daşıyan hökümət nazirlikləri,parlament,xüsusi statuslu nəzarət təsisatları,ədliyyə sisteminin bir hissəsi və mülki cəmiyyət aktyorları, o cümlədən,qadın təşkilatları və media daxildir.

Təhlükəsizlik sektorunun müxtəlif tərifləri vardır, lakin TSİ-ı bu sektorun geniş anlamına əsaslanır və o bütün təhlükəsizlik təminatını,idarəetmə və nəzarət orqanlarını ,o cümlədən,həm hərbi və həm də qeyri-hərbi təhlükəsizlik təsisatlarını və dövlət və qeyri-dövlət subyektlərini özündə cəmləşdirir.

Təhlükəsizlik sektoru üzrə daha geniş məlumat almaq üçün, “Təhlükəsizlik Sektoru” üzrə TSİ-ı Köməkçi materiallarına isnad edin.

## Yaxşı Təhlükəsizlik Sektoru İdarəçiliyi(TSİd) və Təhlükəsizlik Sektoru İslahatı(TSİ)

Yaxşı Təhlükəsizlik Sektoru İdarəçiliyi, yaxşı idarəçilik prinsiplərinin dövlət təhlükəsizlik təminatına necə tətbiq edildiyini göstərir. Yaxşı idarəçilik prinsipləri dedikdə hesabatlılıq,şəffaflıq,qanun aliliyi, iştirakçılıq, cavablılıq, effektivlik başa düşülür. Beləliklə, yaxşı TSİd-ı hüquqi standardlara əsaslanan idarəçilik olub, dövlət təhlükəsizlik sektorunun demokratik ölkədə necə işlədiyini göstərir.Yaxşı Təhlükəsizlik Sektoru İdarəçiliyi o deməkdir ki,təhlükəsizlik sektoru dövlət və insan təhlükəsizliyini effektiv və məsuliyyətli şəkildə mülki demokratik nəzarət çərçivəsində,qanun aliliyi və insan hüquqlarına hörmət çərçivəsində təmin edir.

Yaxşı TSİd –nin qurulması təhlükəsizlik sektoru islahatının məqsədidir. TSİ siyasi və texniki proses olub təhlükəsizliyin təmin edilməsini, idarəetməsini və onun üzərində nəzarəti mülki demokratik nəzarət,qanun aliliyi və insan hüquqları çərçivəsində daha da effektiv və daha da hesabatlı etməklə dövlətin və əhalinin təhlükəsizliyini yaxşılaşdırmaqdır. TSİ-ı sadəcə dövlət təhlükəsizliyi təminatının bir hissəsinə fokuslana bilər və ya bütöv sistemin necə işləməsinə fokuslana bilər, burada əsas məsələ effektivlik və hesabatlılığın yaxşılaşdırılmasıdır.

## Yaxşı təhlükəsizlik sektoru idarəçiliyi prinsipləri ədliyyə sektoruna necə tətbiq edilir?

**Yaxşı TSİd-nin prinsipləri ona əsaslanır ki, ədliyyə sektoru, dövlətin başqa sahələrinin xidmətləri kimi, dövlət xidməti təminatının eyni yüksək standardlarına-hesabatlılıq və effektivliyə cavab versin.** Yaxşı TSİd –i prinsiplərinin ədliyyə və təhlükəsizlik təminatına tətbiq edilməsi TSİ-nın məqsədidir. Ədliyyə sistemi üçün bu aşağıdakılardan ibarətdir:

- **Məhkəmə sistemi hökümətin başqa qollarından asılı deyil:** ədalət sistemi işçiləri öz funksiyalarının yerinə yetirilməsində hökümətdən asılı deyil. Onlara siyasi qərarlar almaq üçün təzyiq edilə bilməz və onlar,ardıcıl və tərəfsiz olaraq qanunu tətbiq etdikləri üçün işdən azad edilə bilməz və ya cəzalandırıla bilməzlər.
- **Məhkəmə siyasi qərarlar vermir:** məhkəmənin yorum vasitəsilə, aparılan işin ortaya çıxardığı qanun vasitəsilə (case law) və onun məhkəmə nəzarəti səlahiyyəti vasitəsilə qanuna təsir etmək imkanına baxmayaraq, qanun qəbul etmək qanunvericilik orqanının məsuliyyətidir(şəraitdən asılı olaraq icra orqanının).
- Ədliyyə sistemi qanun qarşısında hamının bərabərliyini təmin edir: bunun iki mənası vardır, yəni hər kəs həm ədalətdən faydalanmalı və həm də qanun hamıya, o cümlədən, kimliyindən asılı olmayaraq bütün qadın və kişilərə və hökümətin və təhlükəsizlik idarələrinin bütün üzvlərinə eyni cür tətbiq edilməlidir.
- Ədliyyə sistemi özünün bütün funksiyalarında tərəfsiz,şəffaf və ədalətli olmalıdır. Gecikmələr,korrupsiya və diskriminasiya ədliyyə sektorunun üzləşdiyi ən çox yayılmış problemlərdən bir qismidir.
- Ədliyyə sistemi öz vəsaitlərindən istifadə zamanı effektiv və məhsuldar olmalıdır. Ədliyyə sisteminin öz missiyasını yerinə yetirməsi üçün tam resurslarla təmin edilməlidir,lakin ədliyyə sisteminin subyektləri həm də bu resurslardan diqqətlə istifadə etmək məsuliyyəti daşıyırlar.

## Qeyri dövlər ədalət təminatçılarının rolu nədir?

Qeyri dövlət ədalət təminatçıları əhəmiyyətli tarixi statusa malik qeyri-dövlət subyektləri və ya icma rəhbərləri,ənənəvi güc sahibləri və dini cəmiyyətlər kimi yüksək dərəcəli icma legitimliyinə sahib olanlardır. **Qeyri-dövlət ədalət təminatçıları,** dövlət ədalət sistemindən fərqli olaraq**,** ədaləti hamı üçün əlçatan,daha da tez və asan, daha da şəffaf **və ədalətli olaraq, qruplara və fərdlərə təmin edə bilir. Lakin, qeyri-dövlət ədalət təminatçıları insan hüquqları standardları və qanun aliliyinə zidd olaraq da fəaliyyət göstərə bilər**, məsələn, qanun qarşısında hamının bərabərliyini təmin edə bilməməklə,ədalətə bərabər çıxışı təmin etməməklə və ya qanun qarşısında bərabər hesabatlılıq təmin edə bilməməklə buna səbəb ola bilər. Bu səbəbdən, onların dövlət təhlükəsizlik qüvvələri və ədalət təminatçıları ilə münasibətləri bəzən mürəkkəb olur.

**Qeyri-dövlət ədalət təminatçıları təhlükəsizlik üzərində demokratik nəzarət aparılması üçün də problem yaradırlar**,çünki onların dövlət təhülükəsizlik qüvvələri üzərində nəzarət aparılmasında rolları olmadığından, bir sıra şəraitlər ona gətirir ki, ən legitim və ən effektiv ədalət təminatçıları belə rəsmi demokratik nəzarətə cəlb olunmurlar. Bu həm də o

məna daşıyır ki,dövlətin, hansı normalar və qanunların yerinə yetirilib-yetirilmədiyi üzərində nəzarəti olmur və bu da hakimiyyətin yerli orqanların əlində qalmasına səbəb olur və o da burada yaşayan əhalinin bütün üzvlərinin ən yaxşı maraqlarına xidmət etmir. Belə şübhələr də var ki, ədalət axtarışında olanlar öz şikayətlərini elə yerlərdə edirlər ki, orada onların xeyrinə xidmət edən nəticələr çıxarıla bilər və bu da ədalətin təmin edilməsində bərabərlik və ədalət prinsiplərindən uzaqlaşmağa xidmət edər.

**Bir çox ölkələr dövlət və qeyri-dövlət ədalət təminatçıları arasında hibrid hüquqi quruluşlar yaratmaqla kompromisə gəlirlər** və o da qeyri-dövlət subyektlərinə dövlət-əsaslı ədalət sektorunun müəyyə sahələrində rəsmi rol verir: məsələn,dövlət məhkəmə sistemi prosedurlarını keçmək əvəzinə, qeyri-dövlət ədalət təminatçılarına ailə və ya mülki hüquq mübahisələrində hüquqi qərarlar verməsi üçün səlahiyyət verilə bilər (adətən mübahisəli tərəflərin razılığı ilə). Dini və ya qəbul edilmiş qanunlar da, həm mülki və həm də ictimai hüquq sistemlərində ölkə qanunlarının mühüm mənbəyi kimi də sayıla bilər. Bu cür hüquqi quruluş növləri ədalətə çıxışı yaxşılaşdıra bilər və əhalinin gözündə daha legitim qərarlar verə bilər və eyni zamanda yaxşı idarəçilik və qanun aliliyi prinsiplərini dəstəkləyər.

**Həm d**övlət və **həm də qeyri-dövlət ədalət təminatçılarına TSİ-ı** çərçivəsində baxılmalıdır və ya başqa cür olursa**, təhlükəszilik və ədalət təminatında yaxşılaşma məhdud və dayanıqsız olacaq.** Bu səbəbdən , qeyri-dövlət ədalət təminatçıları həmişə TSİ-ı ilə əlaqəli bütövlük yanaşmasında əhəmiyyətli seçim olur.

## Qanun aliliyi,ədalət və TSİ-ı

Yaxşı TSİd-i təhlükəsizlik sektorunun qanun aliliyinə riayət etməsini tələb edir. Qanun aliliyi yaxşı idarəçiliyin prinsipidir və onun vasitəsilə bütün vətəndaşlar və bütün dövlət və həm də qeyri dövlət təsisatları ictimaiyyətə məlum olan və beynəlxalq insan hüquqları ilə uyğun olan və müstəqil və ədalətli tətbiq edilən qanunlar qarşısında cavabdehdirlər. Qanun aliliyi prinsipi ədalət prinsipi ilə eyni deyil. Qanun aliliyi universal bir prinsipdir, lakin ədalətin təmin edilməsi ölkələrin mədəniyyəti,tarixi,dini və daxil siyasəti ilə bağlı olaraq dəyişir. Ədalət sektorunun işi, cəmiyyətin ədalətə olan münasibətindən doğan baxışdan asılı olaraq hər yerdə fərqlidir. Hər bir cəmiyyətdə ədalətə olan baxış, çoxtərəfli və bir-birini örtən mənbələrdən istifadə edir.

Bəzi ümumi təsirlərə aşağıdakılar aiddir:

- Cəzaverici ədalət: mənəvi əsaslara görə, törədilən cinayət cəza gətirir ideyası;
- Utilitar(praktik) ədalət: cinayət cəza tələb edir ideyası cinayətgarı tərbiyəedici müəsisələrdə və ya həbsdə saxlamaqla gələcəkdə törədiləcək cinayətlərin qarşısı alınır və əhali qorunur;
- Dini ədalət: ədalət dini inanca görə müəyyən edilir ideyası;
- Bərpaedici ədalət: zərərçəkənlər,cinayət törədənlər və vətəndaşlar sosial və maddi köməklər vasitəsilə cinayətin vurduğu zərəri bərpa edə bilərlər ideyası

TSİ –ı qanun aliliyi və insan hüquqlarına hörməti yaxşılaşdırmağa çalışır,lakin o hər hansı bir xüsusi ədalət formasını təşviq etmir.

## Ədliyyə sistemi təhlükəsizliyi necə təmin edir?

Ədliyyə sisteminin məqsədi qanunla müəyyən edilmiş hüquq və azadlıqları qorumaq, hakmiyyətdən suiistifadə edilmə hallarını yoxlamaq və münaqişələri həll etməkdir. Qanunun tətbiq edilməsi ədliyyə sektorunun əsas məsuliyyətidir və əksər hüquq mühavizə orqanlarının məqsədi əhaliyə kömək və ictimai asayişi qorumaqdır və xüsusilə də,cinayətin qarşısının alınması,ona nəzarət edilməsi və cinayət olursa cinayətgarın cəzalandırılmasıdır. **Cinayət mühakimə icraatı sektorunun işi, h**üquq mühavizə sistemində **və xüsusilə cinayət işi icraatındakı roluna görə, təhlükəsizliyin təmin edilməsi, onun idarəetməsi və onun üzərində nəzarət aparılmasına birbaşa təsir edir və çox zaman TSİ-ı üçün də** önəm daşıyır.

Cinayət mühakimə icraatı zənciri sistem kimi tutuqlama,məhkəmə və hökm verməklə cinayətin qarşısının alınmasından başlayaraq cinayətgarın saxlanmasına qədər işləri idarə edir(bax Şəkil1).




Şəkil1. Cinayət mühakimə icraatı zənciri

Hüquq mühavizə orqanları rəsmilərinin öz missiyalarını effektiv şəkildə yerinə yetirmələri üçün yuxarıdakı zəncirin hər bir hissəsi özünün xüsusi funksiyasını effektiv şəkildə yerinə yetirməlidir. Zəncirin bir hissəsində problem yarandığı zaman,onun nəticələri hər tərəfə dalğalanır və xidmətin təmin edilməsi və hesabatlılıq zədələnir. Bu səbəbdən, TSİ-ı fəaliyyətləri planlanan zaman təhlükəsizlik və ədalət təminatına birlikdə baxılmalıdır, hətta əgər islahat proqramı və ya layihəsi təhlükəsizlik təminatının bir hissəsinə yönəldiyi hallarda da. Təhlükəsizlik və ədalətə tətbiq edilən bütövlük yanaşması TSİ-nın əsaslı prinsiplərindən biridir və TSİ –ı, çox zaman cinayət mühakimə zəncirinin bütün və ya bir hissəsinə təsir edən islahatlar irəli sürür.

### Keçid dövrü ədaləti və TSİ-ı

TSİ-ı, zorakı münaqişələrlə üzləşən və ya geniş miqyaslı insan hüquqları pozuntuları ilə xarakterizə olunan, siyasi keçidlə müşaiyət olunan ölkələrdə baş verir. Bu cür şəraitlərdə, çox zaman insan hüquqları pozuntularını törədənlər elə təhlükəsizlik sektorunun özü olur və nəticədə keçid dövrü ədaləti və TSİ-ı eyni zamanda baş verir. Keçid dövrü ədaləti xüsusi bir ədalət növü deyildir, əvəzində xüsusi növ hüquqi və hüquqi olmayan mexanizmlərdən ibarət olub, ədalət,barış və sülh əldə etmək üçün keçmişdə baş verən pozuntulara hesabatlılıq vermək məqsədi güdür. Keçid dövrü ədaləti TSİ-ı dəstəkləyir,çünki təhlükəsizlik xidmətlərində inamı bərpa etməyə yönəlmiş islahat, keçmiş insan hüquqları pozuntuları əsasında kadrların arasında yoxlamalar və işdən xaric etmələri nəzərdə tutur. Təhlükəsizlik sektorunun peşəkarlığını yaxşılaşdırmaq üçün və keçmişdə insan hüquqları pozuntuları törətmiş qulluqçuların öz cinayətgar əməllərinə cavab verməsini təmin etmək üçün çox zaman keçid dövrü ədaləti və TSİ-ı üzrə maddələr sülh sazişlərinə daxil edilir.

## Ədliyyə sektoru təhlükəsizlik sektoru üzərində nəzarəti necə təmin edir?

Ədliyyə sektoru da təhlükəsizlik sektoru üzərində hərtərəfli nəzarət və monitorinq qurmaqla təhlükəsizliyi təmin edir. Bu üç yolla baş verir:

- ***Qanun qarşısında hesabatlılıq ilə***: Ədliyyə sektoru təhlükəsizlik təminatçılarının öz vəzifələrindən sui- istifadə etməmələrini və öz addımlarına görə hesabatlı olmalarını təmin edir. Təhlükəsizlik sektorunda çalışanlar, başqa dövlət idarələrinin işçiləri kimi eyni hüquqi standardlara bağlı tutulmalıdırlar,hətta onlara xüsusi səlahiyyətlər verildiyi zaman və ya hərbi ədliyyə sisteminin qanunları kimi fərqli qanunlar əsasında hərəkət etdikləri zaman da belə olmalıdır.Onlar öz missiyalarını,tətbiq edilən hüquq sənədlərə uyğun olaraq, qanun aliliyi əsasında həyata keçirməlidirlər. Ədliyyə sektoru, həm də təhlükəsizlik xidmətlərini qanun pozuntusu və

korrupsiyaya qarşı qoruyur,çünki təhlükəsizlik sektoru qulluqçularının da insan hüquqları qanunla qorunur. Qanun həm də təhlükəsizlik xidmətlərini siyasi müdaxilədən və vəzifədən sui-istifadə edilməsindən qoruyur və təhlükəsizlik sektoru subyektlərinin uyğun rollarını və vəzifələrini aydın şəkildə müəyyən edir.

- ***Təhlükəsizlik sektoru aparıcılarının vəzifələrini necə yerinə yetirdiklərini yoxlayır.*** Ədliyyə sektorunun müəyyən hissələri və xüsusilə də, məhkəmə orqanları, hüquq mühavizə xidmətlərinə verilən xüsusi səlahiyyətlərin uyğun şəkildə və qanun çərçivəsində necə istifadə olunduğunu təmin etmək üçün onlarla əlaqəli işləyirlər. Məsələn,məhkəmə orqanları çox zaman polisin müəyyən fəaliyyətlər göstərməsi üçün onlara xüsusi icazələr verir, məsələn,yoxlayışlar və ya dəlil toplamaq üçün order verir,verilməsə bu cür işlər qanunsuz sayıla bilər. Fundamental hüquq və azadlıqları pozan qərarların tətbiq edilməsi də polis və ya hüquq orqanlarının ixtiyarı qərarları ilə müəyyən edilmir,əksinə bu cür qərarların ədalət və təhlükəsizlik maraqları naminə necə və nə zaman tətbiq edilməsi hüquq sənədlərə uyğun olaraq həyata keçirilir.
- ***Hökümətin başqa qollarının*** öz ***səlahiyyətlərind***ən necə istifadə ***edilməsinin yoxlanması.*** Ədalət sektoru icra və qanunverici orqanlar üzərində yoxlama apararaq yeni qəbul edilmiş qanunların və hökümətin atdığı addımların dövlətin əsas qanunlarının fundamental hüquqi standardları ilə necə uyğun gəlib- gəlmədiyini təmin edir(əsasən konstitusiyaya görə). Məhkəmə nəzarətinin səlahiyyətləri ölkədən ölkəyə dəyişir,lakin demokratik ölkələr, hökümətin fəaliyyəti müəyyən edilmiş hüquqi səlahiyyətlərə uyğun olmadığı hallarda məhkəmə orqanlarına müəyyən səlahiyyətlər verir ki, bu cür fəaliyyətləri qanunsuz saysın. Demokratik prinsiplər,qanun aliliyi və insan hüquqları norma və standardları əsas qanunda möhkəm şəkildə təsbit edildiyi ölkələrdə,məhkəmə nəzarətinin səlahiyyətləri hər hansı aşılanmanın qarşısını ala bilər.

## Nəyə görə ədliyyə sektoru TSİ-nın bir hissəsi sayılır?

TSİ-ı insan təhlükəsizliyini yaxşılaşdırmaq istəyir və insan təhlükəsizliyi isə ədalət olmadan mümkün deyil. Təhlükəsizlik və ədalətin bir-biri ilə yaxın əlaqədə olması ideyası mübahisə doğurmur,lakin ədalətin təhlükəsizlik sektounda hansı dərəcədə yer tutması məsələsi siyasi qərarla bağlı olur,və bu səbəbdən təhlükəsizlik sektorunun heç də hər bir tərifi ədalət sektoru subyektlərini nəzərdə tutmur. Ədalət və təhlükəsizliyə ayrı-ayrılıqda baxılmasının üç əsas səbəbi vardır.

- *Ədalət və təhlükəsizlik bir sıra hallarda fərqli məqsədlərə xidmət edir.* Ədalətin mahiyyəti ilə bağlı fərqli cəmiyyətlər fərqli rəylərə malik olur: məsələn, ədalətə təhlükəsizlik qayğısı kimi baxıldıqda, məsələn,tərbiyəedici və ya bərpaedici yanaşmalara yox,ədalət sektorunun cəzaverici məqsədlərinə həddən artıq çox yer verilə bilər..
- Ədalət və təhlükəsizlik bəzən fərqli mənalar *daşıyır*. Cinayətə təhlükəsizlik qorxusu kimi yanaşılması hüquq mühavizə orqanlarının daha da zorakı əks-strategiyalar irəli sürməsinə gətirir və beləliklə, insan hüquqları, təhlükəsizlik və ədalətin qorunması təhlükə altında qalır.
- *Ədalət və təhlükəsizlik təsisatları demokratik ölkələrdə müxtəlif funksiyalara xidmət edirlər.* Ədalət və təhlükəsizliyin birləşdirilməsi,məhkəmənin nəzarət və baxış təsisatı kimi rolunu sarsıda bilər.

**Ədalət və təhlükəsizliyin birləşdirilməsinin potensial riskləri, yaxşı idarəçilik prinsiplərinin insan təhlükəsizliyi maraqlarına uyğun olaraq tətbiq etməklə TSİ-ı çərçivəsində aradan qaldırıla bilər.**

Ədliyyə sektoru xidmətinin verilməsində ortaya çıxan ümumi problemlərlə TSİ-nın məşğul olacağı sahələrə,xidmətin gecikmələri,korrupsiya,hüquqi imkanların aşağı səviyyəsi,hüquq sistemi barəsində aşağı səviyyəli ictimai anlayış,yüksək xərclər, pis həbsxana şərtləri və məhkəmə öncəsi saxlamaların yüksək dərəcəsi daxildir.

Ədliyyə sektoru üçün effektiv təhlükəsizlik sektoru nəzarəti təmin edildiyi zaman ortaya çıxan ümumu problemlərə korrupsiya, ədalətin təmin olunmaması, hakimlərin milli təhlükəsizliklə bağlı sahələrdə icra orqanına qulaq asması, milli təhlükəsizlik məsələləri ilə bağlı təcrübənin olmaması daxildir.

TSİ-ı ədalətin təmin edilməsini və yaxşı idarəçiliyi, məsələn,aşağıdakı addımlarla yaxşılaşdırıla bilər:

- yaxşı idarəçilik və insan hüquqları prinsiplərinə hörmət etmək üçün hüquqi sənədlərin yenilənməsi ilə;
- mülkilərin məhkəmə edilməsində hərbi ədliyyə sistemindən sui-istifadə edilməsinə və ya siyasi məqsədlər üçün istifadə edilməsinə son verilməsi ilə;
- dövlət və qeyri-dövlət təhlükəsizlik təminatçıları ilə ədalət təminatçıları arasında qarşılıqlı əlaqələrinin yaxşılaşdırılması ilə;
- ədliyyə sektorunun daha yaxşı idarə edilməsi ilə bağlı proqramların, strategiyaların və planların hazırlanması ilə;
- ədliyyə sektorunun rəngarəng əhali daxilində bütün kişilərin,qadınların, oğlanların və qızların tələblərinin ödənilməsini təmin edilməsi ilə;
- ədliyyə sektoru üzərində parlament və müstəqil nəzarət imkanlarının yaxşılaşdırılması ilə.

TSİ və və təhlükəsizlik sektoru tərifi üçün, “Təhlükəsizlik Sektoru İslahatı” və “Təhlükəsizlik Sektoru” köməkçi materiallarına baxın.

## Əlavə materiallar

Qanun aliliyi və TSİ-ı arasındakı münasibətlərin müzakirəsi üçün

- Aleksandr Mayer Reik (Alexander Mayer-Rieckh) “Təhlükəsizlik Sektoru İslahatında keçmiş ilə nə etməli”, SSR yazıları 10 (Genevrə: DCAF, 2013).
- Kristof Bleker və Mark Krupanski (Christoph Bleiker and Marc Krupanski) “Qanun Aliliyi və Təhlükəsizlik Sektoru İslahatı: Mürəkkəb münasibətlətin konseptuallaşdırlması” SSR yazıları 5 (Genevrə: DCAF, 2012).

*TSİ-ı kontekstində ədliyyə islahatının icmalı*

- OECD İnkişafa Yardım Komitəsi “Bənd 7,6 Ədliyyə islahatı” *Təhlükəsizlik Sektoru İslahatı üzrə OECD Kitabçası : Təhlükəsizlik və ədalətin dəstəklənməsi*(Paris, OECD ,2007, səh. 163-181)

*Hərbi ədliyyə sistemi ilə bağlı daha çox məlumat üçün*

- Mindia Vaşaqmadze Rəhbər kitabça:Hərbi ədliyyə sisteminin başa düşülməsi,Vəsait. Təhlükəsizlik sektoru qanunlarının hazırlanması. Bənd 5.1(Genevrə, DCAF,2010)

*TSİ –ı kontekstində Ədliyyə islahatı və Gendər bərabərliyi üzrə*

- Şelbi Quast (Shelby Quast) “Vəsait4: Ədliyyə islahatı və gendər “, Gendər və təhlükəsizlik sektoru islahatı vəsaiti, Meqan Bastik və Kristien Valasek (red.)(genevrə, DCAF, ATƏT/ ODİHR, UN-İNSTRAW,2008)

## Əlavə DCAF TSİ-ı xəbərləri

- DCAF TSİ-ı və yaxşı idarəçilyin bütün aspektləri üzrə geniş tərkibdə vəsaitlər, kitabçalar və rəhbər vəsaitlər dərc edir və onlar DCAF-ın saytından əldə edilə bilər.
- DCAF-İSSAT Praktikası öyrənmə saytında çox sayda onlayn vəsaitlər TSİ-ı praktikləri üçün sərbəst əldə edilə bilər: http://issat.dcaf.ch
- TSİ Köməkçi materiallarını həm onlayn olaraq və ya telefon və tabletlərə aşağdakı **http://ssrbackgrounders.org** saytdan yükləyə bilərsiniz.

**Silahlı Qüvvələr Üzərində Demokratik Nəzarət üzrə Cenevrə Mərkəzi (DCAF)** beynəlxalq fond olaraq müxtəlif ölkələrə təhlükəsizlik sektorunda yaxşı idarəçiliyi və islahatları təşviq edir.

Mərkəz təhlükəsizlik sektorunda demokrtaik idarəçiliyi təmin etmək üçün normalar və standardlar hazırlayır və təşviq edir, dərin siyasi araşdırmalar aparır, ən yaxşı praktikaları və tövsiyələri aydınlaşdırır ölkədaxili səviyyələrdə məsləhətlər verir və praktiki kömək proqramları irəli sürür.

**DCAF**, Petra Qurtnerə dizayna görə, Çerri Ekinsə İngiliscə redaktə etdiyinə görə, Linda Çinafa Fransız dilində redaktə etdiyinə görə, Linda Maçata Fransız dilinə tərcümə etdiyinə görə,və Fernando Kolaçoya kompyuter proqramı hazırladığına görə təşəkkür edir.

**Seriyaların redaktoru**
Fairli Çappuis

**Bu buraxılışa isnad etmək üçün**

DCAF-Təhlükəsizlik Sektoru İdarəçiliyi üzrə Cenevrə Mərkəzi. Təhlükəsizlik Sektoru İslahatı, TSİ-ı Köməkçi materialları seriyaları. Cenevrə,DCAF,2015.

© DCAF. TSİ Köməkçi materialları bu saytdan əldə etmək olar www.dcaf.ch . İstifadəçilər DCAF-a isnad edərək bu materialların surətini çıxara bilər və yaya bilər.  Kommersiya məqsədi üçün istifadə edilə bilməz.